## *CÜMƏ GÜNÜNÜN SİLSİLƏVİ BƏHSLƏRİNDƏN*

**İmam-camaat: Hacı İlqar İbrahimoğlu Allahverdi**
***Mövzu: Qiyamət günü və onun adları(5).***
**Tarix: 14.05.04**

**Bismilləhir-Rahmənir-Rahim.**
***Vəs-salətu vəs-sələmu alə rasulilləhil-əmin, Muhəmmədin salləl-lahu ələyhi və alihi və sələm və alihi tayyibinət - tahirin və lənətul-lahi alə ə-dəihim əcməin minəl-ən ilə qiyəmi yəvmid-din.***

Keçən həftələrədən bir mübarək bəhsə başlamışıq: «*Qiyamət günü və onun adları».* Bu bir bəhsdir ki, insan adət üzrə bu mövzunu unudur və bu bir bəhslərdəndir ki, insanın bu dünyada müvəqqəti olmasını bir miqdar onun yadına salır. Təəsüflər olsun ki, insanların böyük əksəriyyəti *bu hələlik, müvəqqəti dünyadan yapışır və Qiyamət gününü unudurlar*. Mübarək Qur'ani-Kərimin 76-cı surəsinin 27-ci ayəsində bu məsələ xüsusilə vurğulanır: ***«bunlar bu hələlik (müvəqqəti) dünyaya ürək bağlayıblar (sevirlər); ağır və çətin günü (yəni Qiyamət gününü) qulaq ardına vurublar».***

Əgər adam Qiyamət gününü qulan ardına vurmasa, unutmasa idi, günah edə bilərdimi? Əgər Qiyaməti yadında saxlasa idi, bu gün İraqda edilən o alçaq işgəncələri edə bilərdimi? Adam əgər Qiyaməti yadda saxlasa idi, bu gün bütün dünyada şouya çevrilməsi üçün, bir insanı yerə yıxıb başını qoyun kimi kəsib, bütün dünyanın əlinə fürsət verməyə bir şərait yaradardımı?

Adam əgər Qiyamət gününü unutmasa, işlədiyi məntəqədə, işlədiyi sahədə Allah evinin arxasınca böhtan atmaz, şər atmaz və nəticə e'tibarilə, gündəlik minlərlə, onminlərlə insanın lə'nətinə səbəb olmazdı! Bu onu göstərir ki, təəsüflər olsun və bir daha təəsüflər olsun ki, insanların başı qarışıb bu müvəqqəti, bu cılız, bu ötəri, Mə'sumlar tərəfindən talaq verilmiş, *(özü də bir dəfə yox, bir neçə dəfə ki, geriyə qayıda bilməsin),* dəyəri olmayan, zahiri parıldayan, içi puç olan bir dünyaya!

İnsan unudur o günü ki, hər nə edib, bir gün əvəzini görəcək! İnsan ***yəvmid-dini*** unudur, insan ***hesab gününü*** unudur, insan unudur ki, bir haqq gün var ki, onun olmasında şəkk-şübhə yoxdur və yüz faiz olacaq! İnsan ***yəvməl-həqqi*** unudur. İnsan unudur o günü ki, insanın əmisi, dayısı, tayfası, dərisinin rəngi, boyu və s. dərdinə dəyməyəcək. Tam haqq əsasında nəyə layiqdir, ona da layiq görüləcək. İnsan unudur ***yəvməl-fəsli***, ayrılan günü. Murdarların paklardan, çirkinlərin yaxşılardan ayrılan gününü. İnsan unudur o

günü ki, **yəvməl-fəsldir** və ayrılma gedəcək və insanlar hərə özünə aid olan yerə gedib çıxacaq! İnsan unudur o günü ki, bütün gizlinlər aşkar olacaq. İnsan unudur o günü ki, onun haqqında deyilib, «**sərairlərin (gizlinlərin) açıq-aşkar olan bir günü!»**. Gizlənmiş hər şeyin üzə çıxdığı bir günün olmasını unudur insan! İnsan unudur o günü ki, hər şey aşkara çıxacaq və *üzü ağlar* və *üzü qaralar* həmin gün İlahi dərgahda olacaq. Üzü qaralar İlahi əzabın içində boğulacaq, üzü ağlar İlahi ne'mətin və rəhmətin içində olacaqlar!

Keçən bəhsimizdə Qiyamət gününün «**yəvmə tubləs-sərair»** adı ilə bağlı hissəsinə başladıq. Dedik, Qiyamət günü bir gündür ki, o gün **«tubləs-sərair»**, yə'ni bütün gizlilər aşkar olacaq. Burada, bu dünyada nə var ki! Burada hər şeyi gizlətmək olar. Amma orada gizlətmək olmayacaq! Həm gizlində edilən yaxşı əməllər aşkara çıxacaq, həm də edilən pis əməllər aşkara çıxacaq!

Keçən bəhs toxunduq üzü qara olanların durumuna ki, onları nə gözləyir. Bu gün bəhsimizin davamı olaraq, bir daha mübarək ayəyə nəzər salaq, bu dəfə üzü ağlarla bağlı. 3-cü surənin 107-ci ayəsində buyrulur: *«**Amma o kəslər ki, üzləri nurlu və üzləri ağdır, Allahın hüdudsuz feyz və rəhmətindən bəhrələnirlər və daimi olaraq orada qalacaqlar»***.

Bir başqa surəyə nəzər salaq. 75-ci surənin 22-ci, 23-cü ayələrində görürük ki, ağ üzlərlə bağlı açıqlama gəlir: ***«O gün (Qiyamət günü) bir qrup insanlar məşhur olacaq bir halda ki, gözəl və parlaq sifətlər var ki, İlahi rəhmətin intizarındadırlar».***

Bu ayənin bəyanında İmam Rzaya(ə) nisbət verilir ki, buyurur: «**Bu qrup Qiyamət günü parlaq durumda gələcəklər və İlahi hədiyyə intizarındadırlar».**

Biz görürük ki, həmin o insanların durumuna Qur'an xüsusilə diqqət yetirir: həm *üzü ağların*, həm də *üzü qaraların.* Misal üçün, 75-ci surənin 24-cü, 25-ci ayələrində buyrulur: *«**(Qiyamət səhnəsinə bəzi fərdlər daxil olacaq ki, üzləri çox tutulmuş və yığılmış haldadır). Bunlar qaşqabaqlı halda olacaqlar. Onlar bilirlər ki, o ağır əzab onları tutar».***

Bu üzü qaralara aiddir, o kəslərə ki, onlar özləri ilə buradan mənfiliklər aparıblar! Bunlar Qiyamət günü qaş-qabaqlı halda olacaqlar və bunlar bilirlər, bunların tam bilgisi var ki, bu əzab bunları tutacaq.

Başqa bir surədə - 80-cı surənin 38, 39-cu ayələrində buyrulur: *(bu artıq üzü ağlara aid olan ayələrdir)* ***«O gün (Qiyamət günü) üzlər müşahidə olunacaq ki, nurlu və işıqlıdırlar. (Bunlar İlahi rəhmət intizarında) gülüb və sevinərlər»*****.**

Çox maraqlı səhnə və maraqlı gündür ki, insanların tam fərqli haləti olacaq, onlar tam fərqli durumda olacaqlar. Kimisi qaş-qabaqlı olacaq, kimisi sevinc və gülüş içində olacaq. Ayənin davamı olaraq gəlir, buyrulur: ***«Üzlər görünəcək ki, torludur, (kədərli və solğundur). Bunların üzlərinə zülmət və qaranlıq çöküb.(Zülmət və qaranlıq onların üzlərini örtüb və bürüyüb). Bunlar o kəslərdir ki, ömürlərini bu dünyada küfrdə və günahda, pozğunluqda başa vurdular».***

Çox maraqlıdır. Bu dünyanı küfrlə, pozğunluqla, günahla başa vuranın üzü Qiyamət günü tozlu olacaq, onların üzlərini qaranlıq bürüyəcək və bunların durumundan elə çox acınacaqlı vəziyyət bəlli olacaq. 55-ci surənin 41-ci ayəsində bir maraqlı cəhətə də işarə olunur. Buyrulur: ***«Məşhərdə mücrimlər, (günahkarların, pozğunların) simalarından tanınarlar».***

Yə'ni onların simalarında günah artıq təzahür etmişdir. Yə'ni onlar artıq simalarından tanınacaqlar və insanlar onların zahirini görüb batinlərini anlayacaqlar. Bu çox maraqlı bir cəhətdir ki, artıq bu günahkarların, bu mücrimlərin, artıq bu pozğunların, fəsad əhlinin üzündə bunların durumu yazılacaq. Bunların üzündən bəlli olacaq ki, bunların içində nə var və vəziyyət nə yerdədir. Bu baxımdan Qiyamət günü bir gündür ki, **«sərair»**, bir gündür ki, bütün hər bir gizli üzə çıxacaq. Yaxşının yaxşı durumu üzə çıxacaq, pisin pis durumu üzə çıxacaq. Ləyaqətli, şəxsiyyətli, vicdanlının üzü ağ olacaq, üzü nurlu olacaq. Lakin, vicdansızın, ləyaqətsizin, şəxsiyyətsizin üzü qara olacaq, üzü tozlu olacaq, üzü o halda olacaq ki, üzlərindən bunların daxili və batini bəlli olacaq!

**Günümüzə gələk**. Günümüz üçün də bu mövzu xüsusilə əhəmiyyətlidir. Bu gün müsəlman aləmi, hətta bütün dünya çox ağır günlər yaşayır. Dünya bu gün imtahan verir. Dünya bu gün öz çatdığı *dəyərlərin* ətrafında imtahani verir. Dünya istəyirdi can qurtara hoqqabazlıqdan, istəyirdi can qurtara yalançılıqdan, istəyirdi can qurtara ikiüzlülükdən, istəyirdi can qurtara insanın alçalmasından! Lakin hadisələr onu göstərir ki, nəinki can qurtarmır, hələ üstəlik bəşər daha ağrılı, daha dəhşətli günlərini yaşayır. İrak müsəlmanlarının, müsəlman bacı və qardaşlarımızın zindanda başlarına gələn tükürpədici işgəncələr, çox narahatedici səhnələr üzə çıxır.

Məsələ bundadır ki, hər hansı bir insana qarşı işgəncə yolverilməzdir. Bunu din də deyir, bunu Allah da deyir, bunu Peyğəmbər (s) də deyir. Bunu xristian da deyir, bunu yəhudi də deyir. Dünyada bir dənə də olsun dəyər sistemi tapmazsınız ki, deyə işgəncə yaxşıdır. Dəyərlər sistemi inkişaf etməklə bərabər, bu gün dünya hüquqi müstəvidə də gəlib çatıb buna ki, işgəncə olmaz. İşgəncə

insan şəxsiyyət və ləyaqətinin alçaldılmasıdır və yalnız fiziki işgəncə də işgəncə sayılmır, elə mə'nəvi işgəncə də işgəncə xarakterini daşıyır. Məsələn, hansısa şəxsiyyətsiz kimsə, «Cümə» məscidi haqqında hansısa hədyan fikir söyləyirsə, öz vəzifəsini düzgün yerinə yetirmirsə, İçərişəhərdə əmin-amanlıq yaratmaq əvəzinə, utanmaya-utanmaya durub Allah evinə böhtan atıbsa, bu özü elə inanclı adam üçün ən böyük işgəncədir. Normal ölkələrdə olsa idi, onu hər bir mömin məhkəməyə verə bilərdi ki, «utanmırsan, Allah evinə şər atmısan!» və kompensasiya da ala bilərdi ki, «mən sənə görə özümü narahat hiss etmişəm!».

Yə'ni işgəncə tək fiziki olmur. Hər baxımdan, mə'nəvi də, fiziki işgəncə də pisdir. Dərd burasındadır ki, bunlar bir neçə tərəfdən faciəliyi göstərir. Bir faciə, insanın faciədir. Görün bəşər nə gündədir, hələ nələr baş verir. İkinci faciə müsəlman olaraq yaşanılan bir faciədir. Görün ümmət nə haldadır, nə vəziyyətdədir ki, başına nə işlər gəlir. Ümmətin başı bir-birinə qarışanda belə olur! Elə bilməyək ki, başqa ölkələrdən danışılır. Əfsus ki, özümüzdə də elədir.

Ağla gələn və gəlməyən işgəncələr olub və şükürlər olsun ki, dünya bir durumdadır, bir haldadır, bir vəziyyətdədir ki, heç müsəlman olmayanlar özləri qaldırıb bu məsələni. Soruşurlar ki, niyə, nə səbəbə, nəyə görə bunlarla belə rəftar etməlisiniz?!

Yaxşı haldır bu. İndi burada müsəlmanlar bir qədər də bu məsələdən yapışıb, bu məsələlərin elə arxası ilə gedib sona çatmaq əvəzinə, təxribatlar baş verir.

Əlbəttə, yə'qin yoxdur ki, bunları edənlərin özü müsəlmanlardır. Mə'lum deyildir ki, bunu edənlər özləri nə durumdadır, bunu edənlər özləri nə vəziyyətdədir. Amma son üç-dörd gündür ki, nə vaxt informasiyaya baxılır, elə görünür ki, güya bir qrup müsəlman yığılıbdır, birinin başını kəsirlər və dünyaya qəddar bir müsəlman obrazı təqdim edilir. Çox ağrılı bir haldır! Bir sual verən yoxdur ki, kimdir bunlar? İkincisi, bunların nə ixtiyarı var İslam adından, müsəlman adından danışalar? Üçüncüsü, bu nə deməkdir, adamı yıxasan yerə, qoyun kimi başını kəsəsən? Dördüncüsü, məgər haradasa bir məsihi nə edirsə, bu bütün xristianlığa aid olur? Amma məsələ budur ki, artıq dünyaya, bütün ictimai rə'yə bu təqdim olundu. Təqdim olundu ki, baxın müsəlman budur. Sabah Qarabağdan da söhbət gedəndə, bədnam qonşular durub deyəcəklər ki, bunlar müsəlmanlardır, bunlar bu işləri görəcək bizimlə orada! Harada müsəlman var, bu məsələ onun üçün birmə'nalı olaraq ziyanlı tamam olacaq. Yə'ni, burada ağılla, müdrikliklə gedilməli vəziyyət olmalıdır. Başqa yol yoxdur. Bu saat çox ağır və çox böhranlı bir vəziyyətdir. Ümumiyyətlə, dünyada son müddət ərzində bu cür böhran yaşanmayıb. Gəlib çatıb bir

vəziyyətə ki, dünya mədəniyyətləri ya toqquşmaya doğru gedir, ya danışığa doğru, dialoqa doğru gedir.

Həmd olsun Allaha, dünya müctəhidləri çox gözəl, müdrik mövqelərdə durublar və inşəallah, Allahdan istəyimiz budur ki, bu məsələrdə onların, Allah qoysa, müdrikliyi ilə müsəlman ümməti imtahandan çıxar!

Əlbəttə, bu çox ağrılı bir məsələdir. Gör vəziyyət nə yerdədir! Nəcəf və Kərbəla o yerlər deyil ki, bunların ətrafında döyüşlər gedə! Bu dərddir, bu böyük bəladır! Böyük dərddir və böyük bir bəladır ki, Kərbəla və Nəcəf ətrafı döyüş poliqonu, döyüş meydanı deyil, bura ziyarət yeridir! Bura qırmızı xəttlərdir, bura toxunulmaz yerlərdir! Allah belə fitnələrdən saxlasın hamımızı. Ona görə də çox diqqətli olmaq lazımdır. Çox ağrılı və çox dəhşətli, pis vəziyyətdir. Həddən artıq pis vəziyyətdir. Dualarda fikir vermək lazımdır bu məsələlərə. Çünki, qırmızı xəttə yaxınlaşıb bu hadisələr. Qırmızı xəttlər dərəcəsinə kimi gəlib çatıb.

İndi Allah özü güc versin, qüvvət versin, inşaallah, bu hadisələrədə diqqətli olmaq lazımdır. Belə bir sual çıxa bilər ki, bəs yaxşı, biz nə edək? Biz diqqətli olmalıyıq və hərə öz işində, gücündə, yerində, ibadətində çalışmalıdır bu məsələlərə bir vücudi yanaşa. Burada da biz elə qırmızı xətlərdəyik. Kənarda deyilik, burada da qırmızı xəttdir. Burada da elə deyirlər ki, məscidi muzey edək, nə edək və s. Burada da elə qırmızı xəttdəyik! Bir qırmızı xəttdəyik ki, bu qırmızı xəttdən o yanası yoxdur.

Şükür olsun Allaha ki, bu neçə aydır verilir bu imtahanlar, bu imtahanları da ləyaqətlə sona çatdırmaq lazımdır. Yə'ni, burada xüsusi diqqətli olmaq lazımdır. Xüsusən də təxribatçılara, hoqqabazlara qarşı diqqətli olmaq lazımdır. Onlar vaxtaşırı belədirlər. Ya susurlar, ya bir müddətdən bir dirilirlər, dirçəlirlər. Hamıya hər şey aydındır. Hamı bu neçə ayda ə'la bilir vəziyyəti, maşallah, böyük ayıqlıq gedib. Ona görə də bu məsələlərə çox diqqətlə yanaşmaq lazımdır.

Bir dənə də məsələ yekunda istəyirik deyək. Yadınıza gəlirmi, sökülən bir məscid var idi? Hamının yadındadır. Gedin baş çəkin görün o torpaqların ətrafında nə olub! Guya o yer strateji yer idi, məscid də olmazdı tikmək. Bütün torpaqlar satılıb, evlər tikilib. Bircə məscidin olduğu yerə heç kim girmir. Maraqlıdır, deyirdilər ki, ora strateji bir yerdir, məscid tikmək olmaz. Məscid elə yerdir ki, hamı gedib ibadət edəcək. Nə oldu məscid olmaz, amma ev tikmək olar? Məscid tərəfə gedən yoxdur, qorxurlar orada ev tikməyə. Şükürlər olsun, xalqın qəlbində bir balaca da olsa xof var. Heç olmasa deyir, o yerdə ev tikərəm düşər-düşməzi olar. Bu səviyyədə heç olmasa başa düşülür. Bəli, düşər-düşməzi olar, eləcə adamın yeddi qatından da

keçər! Məscidlə zarafat edənin yeddi qatından keçər! Tarix boyu da keçəcəkdir.

Elə-belə deyil, dualarınızda mütləq və mütləq məscidlə bu müddətdə zarafat edənləri yada salın və dualarınızda onlara xüsusi yer ayırın. İnşaallah, hidayət olunası deyillərsə, Allah cəzalarını versin və verəcək də. İnşəallah qız alanda, qız verəndə hamısını tanıtmaq lazımdır topluma ki, filankəsin atası, filankəsin əmisi, filankəsin dayısı filan iş görüb, bu nəslin nəsli-nəcabətində qarışıq var. Niyə? Bu adam məscidlə nəsə düz gəlmir. Bu Allah evinə böhtan atan olub. Bu adama qız almaq, qız vermək və başqa min dənə məsələlər var, diqqətli olmaq lazımdır. Toplumu tanıtdırmaq lazımdır. Toplumda əmr be məruf və nəhy əz münkər yaşanmalıdır! Mütləq və mütləq yaşanmalıdır. Bu ibrət olmalıdır ki, sabah başqası qələtlər etməsin. Necə ki, İraqda işkəncələr edənlər mütləq cəzasına çatmalıdır, cəzasına çatmağa doğru gedir də. Burada da qırmızı xəttlərdir, diqqətli olmaq lazımdır. Ağılla da, müdrikliklə də bu məsələlərdə getmək lazımdır.

Bizim vəziyyətimiz göz qabağındadır. Biz ibadətlə məşğuluq və Allah qoysa, inşəallah, bu məscid, məscid olaraq nə etməlidir, Peyğəmbər (s) və Əhli-Beyt (ə) məktəbində olan məscid, məscid olaraq nə etməlidir, hamısını etməyə çalışmışıq və edəcəyik. Məscid məscid olaraq kamil bir duruma gəlib çatmalıdır. Allaha şükür, bu on iki ildə bərpa oluna-oluna gedir ən’ənələr. Etikaf bərpa olunub, digər məsələlər də bərpa olunub, və inşəallah, bərpa ola-ola da gedəcək.

**Uşaqlar üçün bayram keçirildi keçən həftə.** Şükürlər olsun, yüz nəfər, yüzdən çox mö’min balası gəldi bayrama! Böyük məsələdir. Yüz nəfər balanın gəlməsi o deməkdir ki, hələ toplum ölməyib, hələ valideyn fikirləşir övladı haqqında. Peyğəmbər (s) mövluduna yüz nəfər uşaq gəlirsə, böyük məsələdir. Nə çıxsa, bu uşaqlardan çıxacaq. Millət üçün də, toplum üçün də, dəyərlər üçün də nə etsə, inşaallah, elə bunlar edəcəklər! Bu baxımdan mütləq və mütləq bütün ayıqlığımızla, bütün diqqəttimizlə baxmalıyıq, qırmızı xətləri də dəqiq tanımalıyıq və qırmızı xətlərdə tam ayıqlıqla dayanmalıyıq. Allah eləməsin unutqan olaq, Allah etməsin bu müvəqqəti dünyaya aldanmış olaq! Allah etməsin bu müvəqqəti dünyanın bər-bəzəyi çaşdırmış ola, Allah etməsin bu müvəqqəti dünyada vaxtımızı aydın olmayan məsələlərə itirək və axırda bir gün ayılaq ki, hər şey əldən gedib.

**O gün Şuşa ilə bağlı əzadarlıq keçirdik.** Bu gün daha Şuşa məscidində keçirdə bilmirik. Bu göz qabağındadır ki, bu gün Şuşa məscidini fransızlara vermək istəyirlər və onlar da muzey etmək istəyirlər. Çox maraqlı vəziyyətlərdə yaşayırıq biz. Kimin gücü çatır, getsin Şuşa məscidi ilə bağlı nəsə etsin də! Ona görə Allahdan biz

müsəlmanlar üçün, hamımız üçün həqiqi oyanış, həqiqi dirçəliş, həqiqi vücudi durum, inşəallah arzu edirik!

Allahım! Bu dünyada və axirətdə bizləri həzrət Peyğəmbərdən (s) və Əhli-Beytindən (ə) ayrı salma!

Allahım! İşğal olunmuş müsəlman torpaqlarının, xüsusilə də Qarabağın tezliklə azad olunmasını nəsib et!

Allahım! Günahlarımıza əfv qələmi çək, müşküllərimizi aradan qaldır! Allahım! Zəmanə Sahibinin – 12-ci İmamın (ə.f.) mübarək zühurunu tezləşdir! Bizləri onun zühurunu tezləşdirənlərdən qərar ver! AMİN!